# Azerbaijani - Free from Death Scriptures

Romalilara 6:23 3Çünki günahın əvəzi ölümdür, Jehovahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır.
Romalilara 8:2 Çünki həyat verən Ruhun qanunu səni günah və ölüm qanunundan Məsih İsa vasitəsilə azad etdi.
2 Timoteyə 1:10 indi isə Xilaskarımız Məsih İsanın zühuru ilə üzə çıxdı. O, ölümü yox etdi, Müjdə vasitəsilə həyatı və ölməzliyi aşkar etdi.
Əyyub 5:2 Səfehi qəzəb öldürər, Nadanı həsəd məhv edər.
Huşə 13:14 Mən onları ölülər diyarının Əlindən satın alacağam, Onları ölümdən xilas edəcəyəm. Ey ölüm, bəlaların hanı? Ey ölülər diyarı, həlakın hanı? Gözümdə mərhəmət görünməyəcək.
Zəbur 9:13 Ya Rəbb, rəhm et! Ey ölüm qapılarından məni qurtaran, Mənə nifrət edənlərin üzündən çəkdiyim dərdə bax!
Əyyub 6:26 Niyə sözlərimi qınamaq istəyirsiniz? Niyə mən biçarənin dediyini boşboğazlıq sanırsınız?
Əyyub 33:22 Canı quyuya, Həyatı ölüm mələklərinə yaxınlaşır.
Yezekel 37:12,13 Buna görə də peyğəmbərlik edib onlara söylə ki, Xudavənd Rəbb belə deyir: "Ey xalqım, Mən qəbirlərinizi açıb sizi oradan çıxaracaq və İsrail torpağına gətirəcəyəm. 13 Ey xalqım, Mən qəbirlərinizi açanda, sizi qəbirlərinizdən çıxaranda biləcəksiniz ki, Rəbb Mənəm.
Matta 27:52 Qəbirlər açıldı, vəfat etmiş bir çox müqəddəsin cəsədi dirildi.
Genezis 2:7 Rəbb Jehovah yerin torpağından insanı düzəltdi və onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı varlıq oldu.
Genezis 6:17 Bax Mən yer üzünü suya qərq edəcəyəm ki, göylər altında həyat nəfəsi olan bütün canlılar məhv olsun və yer üzündə olanların hamısı öləcək.
Genezis 7:15 həyat nəfəsi olan bütün canlılardan cüt-cüt Nuhun yanına gəlib gəmiyə mindi.
Genezis 7:22 Quruda yaşayan, burnunda həyat nəfəsi olan canlı varlıqların hamısı öldü.
Əyyub 12:10 Hər yaratdığının canı Onun əlindədir, Bütün insanların nəfəsi Onun əlindədir.
Əyyub 33:4 Məni Jehovahın Ruhu yaratdı, Külli-İxtiyarın nəfəsi mənə həyat verdi.
Həvarilərin Işləri 17:25 İnsan əli ilə edilən xidmətə Onun ehtiyacı yoxdur, çünki hər kəsə həyat, nəfəs və hər şeyi verən Odur!
Vəhy 13:15 Ona həmin vəhşi heyvanın surətinə nəfəs vermək qüdrəti verildi ki, bu surət də danışsın və ona səcdə etməyən hər kəsin öldürülməsini əmr etsin.
Yəhya 10:10 Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun.
Yeşaya 28:15 Madam ki siz dediniz: «Ölümlə əhd bağladıq, Ölülər diyarı ilə

razılığa gəldik,Ölkəyə böyük bəla gələndə Bizə zərər verməyəcək, Çünki yalanı özümüzə sığınacaq etdik, Hiylənin arxasında gizləndik»,

Yeşaya 28:18 Ölümlə bağladığınız əhd ləğv olunacaq, Ölülər diyarı ilə razılığınız qüvvədən düşəcək. Ölkəyə böyük bəla gələndə sizi məhv edəcək.

Yeşaya 5:24 Beləliklə, alovun dili samanı necə yeyib-qurtarırsa, Küləş od içində necə əriyib-gedirsə, Onlar da köklərindən elə çürüyəcək, Tumurcuqları toz kimi havaya sovrulacaq, Çünki Ordular Rəbbinin qanununu rədd etdilər, İsrailin Müqəddəsinin sözünə xor baxdılar.

Yoelə 1:12 Tənək qurudu, Əncir ağacı soldu, Nar, xurma, alma, Çölün bütün ağacları qurudu. Görün ki, bəşər övladları arasından sevinc yox oldu.

Huşə 13:15 Efrayim öz qardaşları arasında Barlı-bəhərli olsa da, Şərq yeli, səhradan qalxan Rəbbin küləyi gələcək, Onun bulağı quruyacaq, Çeşməsinin suyu kəsiləcək. Bütün qiymətli şeylər xəzinəsi qarət olunacaq.

Vəhy 22:1 Mələk mənə həyat suyu axan çayı göstərdi. Bu çay büllur kimi parlaq olub Jehovahın və Quzunun taxtından çıxır

Yəhya 4:10 İsa ona cavab verdi: «Əgər sən Jehovahın bəxşişini və "Mənə su ver, içim" deyənin Kim olduğunu bilsəydin, özün Ondan su istəyərdin, O da sənə həyat suyu verərdi».

Yəhya 4:14 amma Mənim ona verəcəyim sudan kim içsə, heç vaxt susamaz. Lakin ona verəcəyim su onun daxilində əbədi həyat verən bir su qaynağına çevriləcək».

Məsəlləri 13:14 Hikmətli adamın təlimi həyat qaynağıdır, İnsanı ölüm tələsinə düşməkdən geri qaytarır.

Məsəlləri 14:27 Rəbb qorxusu həyat qaynağıdır, İnsanı ölüm tələsinə düşməkdən geri qaytarır.

Yezekel 13:17-23 Sən ey bəşər oğlu, öz-özlərindən peyğəmbərlik edən xalqının qadınlarına üzünü tut və onların əleyhinə peyğəmbərlik edib 18 söylə ki, Xudavənd Rəbb belə deyir: "Canları ovlamaq üçün hər kəsin biləyinə yastıqçalar tikən və hər boyda olan adamın başına örtüklər düzəldən qadınların vay halına! Elə bilirsiniz ki, xalqımın canlarını ovlamaqla öz canınızı salamat saxlayacaqsınız? 19 Xalqımın önündə bir neçə ovuc arpa və bir neçə parça çörək üçün Məni izzətdən saldınız. Yalana qulaq asan xalqıma yalan söyləyərək ölməyə layiq olmayanları öldürdünüz və yaşamağa layiq olmayanları yaşatdınız". 20 Buna görə də Xudavənd Rəbb belə deyir: "İndi Mən sizin ovsun yastıqçalarınıza qarşıyam. Həmin yastıqçalarla siz orada adamları quş kimi ovlayırsınız. Mən onları qollarınızdan qoparacağam. Quş kimi ovladığınız adamları azad edəcəyəm. 21 Örtüklərinizi də yırtacaq və xalqımı əlinizdən qurtaracağam. Onlar daha bir ov kimi sizin əlinizdə əsir olmayacaq. Onda biləcəksiniz ki, Rəbb Mənəm. 22 Mənim kədərlənməsini istəmədiyim salehin ürəyini siz yalanlarla kədərləndirdiniz, pis adamın qoluna güc verdiniz ki, öz pis yolundan dönməsin və canını qurtarmasın. 23 Buna görə də artıq boş görüntülər görməyəcək və falçılıq etməyəcəksiniz. Mən Öz xalqımı sizin əlinizdən qurtaracağam. Onda biləcəksiniz ki, Rəbb Mənəm"».

Yeremya 21:8 Bu xalqa söylə ki, Rəbb belə deyir: "Budur, həyat yolunu və ölüm

yolunu önünüzə qoyuram.
Əyyub 34:22 Şər iş görənlərin gizlənəcəyi Nə qaranlıq, nə də zülmət yeri var.
Zəbur 16:10 Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını qəbirə salmazsan.
Zəbur 23:4 Ölüm kölgəsinin dərəsində gəzsəm belə, Şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.
Zəbur 30:3 Ya Rəbb, canımı Ölülər diyarından azad etdin, Qəbirə düşməyim deyə Sən mənə həyat verdin.
Zəbur 49:15 Amma Jehovah ölülər diyarının əlindən canımı qurtaracaq, Məni oradan alacaq. Sela
Zəbur 56:13 Çünki canımı ölümdən qurtardın, Ayaqlarımı büdrəməyə qoymadın, Belə ki Jehovahın hüzurunda, Həyatın nurunda dolanım.
Zəbur 68:20 Jehovahımız azad edən Jehovahdır, Ölümdən qurtaran Xudavənd Rəbdir.
Zəbur 89:48 İnsanlar arasında ölüm görməyən kimdir? Kim canını ölülər diyarının pəncəsindən qurtarar? Sela
Zəbur 102:19,20 «Rəbb müqəddəs yüksəklikdən, Göylərdən yer üzünə nəzər saldı; 20 Əsirlərin naləsini eşitmək üçün, Ölümə aparılanları azad etmək üçün».
Zəbur 116:8 Ya Rəbb, canımı ölümdən, Gözlərimi göz yaşından, ayağımı büdrəməkdən qurtardın.
Məsəlləri 10:2 Şər yolla yığılan xəzinədən fayda götürmək olmaz, Amma salehlik insanı ölümdən qurtarar.
Yeşaya 26:19 Sənin ölənlərin həyata qovuşacaq, meyitimlə birgə diriləcəklər. Ey torpaq altında yatanlar, oyanın, Sevinc nəğməsini oxuyun, Çünki şeh torpağı necə təravətləndirirsə, Rəbb də torpaqdakı ölüləri belə dirçəldəcək.
Yəhya 5:28,29 Buna heyrət etməyin, çünki elə bir zaman gəlir ki, qəbirdə yatanların hamısı Onun səsini eşidib 29 qəbirlərindən çıxacaq, yaxşılıq edənlər həyat üçün diriləcək, pislik edənlərsə hökm üçün diriləcək.
Yəhya 10:28 Mən onlara əbədi həyat verirəm. Onlar heç vaxt həlak olmayacaq və heç kim onları əlimdən qapmayacaq.
Yəhya 11:43,44 Bu sözləri söylədikdən sonra «Lazar, bayıra çıx!» deyə bərkdən qışqırdı. 44 Ölü də bayıra çıxdı. Onun əl-ayağı sarğılarla və üzü dəsmalla bağlanmışdı. İsa onlara «onu açın və buraxın getsin» dedi.
Yəhya 12:17 İsanın Lazarı qəbirdən çağırıb ölülər arasından diriltdiyi zaman Onun yanında olan camaat buna şahid idi.
Yəhya 17:2 Sən Ona bütün bəşər üzərində səlahiyyət verdin ki, Ona verdiyin şəxslərin hamısına əbədi həyat versin.
1 Korinflilərə 15:19-26 Əgər yalnız bu həyat üçün Məsihə ümid bağlamışıqsa, biz hamıdan yazığıq. 20 Əslində Məsih ölülər arasından, vəfat edənlərin ilki olaraq dirildi. 21 Ölüm bir insan vasitəsilə gəldiyinə görə ölülərin dirilməsi də bir İnsan vasitəsilə gəlir. 22 Adəmdə hamı öldüyü kimi Məsihdə də hamı həyata qovuşacaq. 23 Hər biri öz növbəsi ilə – ilk növbədə Məsih, sonra Məsihin zühurunda Məsihə məxsus olanlar həyata qovuşar. 24 Bundan sonra

O hər başçını, hər hakimi və hər qüvvəni aradan götürüb Padşahlığı Ata Jehovaha təslim edəcəyi zaman hər şey tamamlanacaq. 25 Çünki Jehovah Onun bütün düşmənlərini ayaqlarının altına salanadək O, padşahlıq etməlidir. 26 Aradan götürüləcək son düşmən isə ölümdür.

2 Korinflilərə 1:9,10 Daxilən hiss etdik ki, ölümə məhkum olmuşuq. Amma bu özümüzə deyil, ölüləri dirildən Jehovaha güvənməyimiz üçün başımıza gəldi. 10 Jehovah bizi belə bir böyük ölüm təhlükəsindən qurtardı və qurtarmaqda davam edəcək. Ümidimizi Ona bağlamışıq

2 Korinflilərə 3:6 O bizi Yeni Əhdin xidmətçiləri olmaq üçün qabiliyyətli etdi. Bu Yeni Əhd yazılı Qanuna deyil, Ruha əsaslanır. Çünki yazılı Qanun öldürür, Ruh isə həyat verir.

Kolosselilərə 1:21,22 Etdiyiniz pis əməllərə görə bir zamanlar düşüncələrinizdə Jehovaha yad və düşmən idiniz. 22 İndi isə Məsih cismən ölməklə Öz bədəni vasitəsilə sizi Jehovahla barışdırdı ki, sizi Onun qarşısında müqəddəs, ləkəsiz və nöqsansız təqdim etsin.

Ibranilərə 2:9 Amma Jehovahın lütfü ilə hər kəsin uğrunda ölmək üçün mələklərdən az müddət ərzində aşağı tutulmuş Şəxsi, yəni İsanı görürük. Çəkdiyi ölüm əzabına görə Onun başına izzət və əzəmət tacı qoyuldu.

Ibranilərə 2:14,15 Bu səbəbdən bu övladlar tərkibcə qan və ətdən yarandıqlarına görə İsa Özü də onların insan təbiətinə şərik oldu ki, ölüm üzərində hakimiyyət sahibi olanı, yəni iblisi Öz ölümü vasitəsilə təsirsiz hala gətirsin 15 və ölüm qorxusuna görə ömürləri boyu əsarətdə olanların hamısını azad etsin.

Ibranilərə 11:5 Xanok ölümü görməsin deyə iman vasitəsilə dünyadan götürüldü. Onu tapa bilmədilər, çünki Jehovah onu dünyadan götürmüşdü. Götürülməzdən əvvəl o, şəhadət almışdı ki, Jehovahı razı salıb.

1 Peter 3:18 Çünki saleh olan Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Jehovahın hüzuruna gətirsin. O cismən edam edilmiş, amma ruhən həyata qovuşmuşdur.

2 Peter 1:3 Bizi Öz izzəti və alicənablığına Çağıranın ilahi gücü Onu tanımağımız vasitəsilə yaşamağımız və mömin olmağımız üçün lazım gələn hər şeyi bizə bəxş etdi.

1 Yəhya 3:14 Qardaşlarımızı sevdiyimizə görə biz bilirik ki, ölümdən həyata keçmişik. Sevməyənsə ölümdə qalır.

1 Yəhya 5:11 Bu şəhadət ondan ibarətdir ki, Jehovah bizə əbədi həyat verib və bu həyat Onun Oğlundadır.

Vəhy 21:6 O mənə dedi: «Tamam oldu! Alfa və Omeqa, Başlanğıc və Axır Mənəm. Mən susayana həyat suyunun qaynağından müftə su verəcəyəm.

Pastor T. John Franklin
Church of Salvation, Healing, and Deliverance
COS-HAD.org